# Dövlətimizin təhsilalanların sağlamlığına göstərdiyi qayğı

**Gülnar Teymur qızı Bayramlı**
*Bakı Qızlar Universiteti*
**E-mail:** gulnarbayramova94@ gmail.com

**Rəyçilər:** p.ü.f.d., dos. G.V. Sultanova,
p.ü.f.d., dos. Y.A. Allahverdiyev

**Açar sözlər:** qayğı, qanunvericilik, təhsil sektoru, sağlamlıq, xüsusi təhsil
**Ключевые слова:** уход, законодательство, образование, здравоохранение, специальное образование
**Key words:** care, legislation, education, health, special education

Azərbaycan cəmiyyətində baş verən demokratik dəyişikliklər sağlamlıq, inkişaf və digər problemlərdən asılı olmayaraq, hər bir şəxsin ehtiyaclarının ödənilməsinə yönəldilən prosesləri ön plana çəkir. Qabaqcıl dünya ölkələrinin təhsil sistemlərində olduğu kimi, respublikamızın xüsusi təhsil sistemində də interaktiv proseslər həyata keçirilir, inklüziv təlimin təşkilinə şərait yaradılır. Azərbaycanın təhsil sistemində xüsusi qayğıya ehtiyacı olan uşaqların yaradıcılıq potensialının inkişafı sahəsində inteqrasiyalı (inklüziv) təlimin keyfiyyətinin yüksəldilməsi istiqamətində səmərəli işlər məqsədəmüvafiq şəkildə davam etdirilir.

Bu gün ölkəmizdə uşaq və yeniyetmələrə, gənclərə göstərilən diqqət və qayğı onlara yaradılan hərtərəfli şərait dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Ulu öndərimiz Heydər Əliyev vaxtilə bu sahəyə xüsusi diqqət ayırmış, uşaq və yeniyetmələrin sağlam, bilikli və hərtərəfli böyümələri yönündə bir sıra tədbirlər həyata keçirmiş, fərman və sərəncamlar imzalamışdır.

Ulu öndər Heydər Əliyev şəxsiyyətinin dahiliyini, onun əvəzolunmazlığını təsdiq edən ən birinci fakt odur ki, O, böyüklərə qarşı nə qədər sərt və tələbkar idisə, eyni zamanda uşaqlara bir o qədər nəzakətli və mərhəmətli idi. Dahi şəxsiyyət Heydər Əliyev uşaqların təhsilinə, onların savadlı və cəmiyyət üçün yararlı olmalarına çalışmışdır. Bu gün onun layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyev də dahi şəxsiyyətin xeyirxah ənənələrini uğurla həyata keçirir. Dövlət başçısının 2009-cu ilin "Uşaq ili" elan edilməsi haqqında sərəncamı da ölkədə uşaqlara göstərilən qayğının bariz nümunəsidir.

Müasir dövrdə elmi-intellektual potensial hər bir xalqın mütərəqqi inkişafının mühüm amilinə çevrilmişdir. Qloballaşan dünyada dövlətin öncüllüyü, milli inkişaf səviyyəsi və gələcək taleyi bu strateji sahənin mövcud durumu ilə şərtlənir. İqtisadi tərəqqi, demokratikləşmə və insan hüquqlarının etibarlı təminatı baxımından özünün yüksək inkişaf mərhələsinə çatmış ölkələrin nailiyyətləri məhz elmə, təhsilə yüksək diqqət və qayğı sayəsində əldə edilmişdir.

Azərbaycanda dinamik iqtisadi inkişafın sürətləndirilməsinə, cəmiyyət həyatının bütün sahələrində mütərəqqi islahatların aparılmasına etibarlı təminat yaradan dövlət başçısı cənab İlham Əliyev elm və təhsilin problemlərini daim diqqət mərkəzində saxlayaraq ulu öndərin bu sahədə müəyyənləşdirdiyi prioritetlərin varisliyini təmin etmişdir. Azərbaycan Prezidentinin elm və təhsilin davamlı inkişaf konsepsiyasının uğurla gerçəkləşdirilməsində Heydər Əliyev Fondunun son 10 illik fəaliyyəti də xüsusi vurğulanmalıdır [4, s. 182].

Məlumdur ki, inklüziv təhsil sağlamlıq imkanları məhdud uşaqların ümumtəhsil məktəbinin təlim prosesinə fəal daxil olmasından daha çox kütləvi təhsil prosesinin bir sistem kimi

yenidən qurulmasını və bütün uşaqların təhsil ehtiyaclarının təmin edilməsini nəzərdə tutur. İnklüziv təhsilin ən üstün cəhətlərindən biri də xüsusi qayğıya ehtiyacı olan uşaqlarla sağlam uşaqların bir yerdə təhsil almasıdır. Bildiyimiz kimi, bu çox çətin prosesdir. Belə ki, burada həm pedaqoq, həm həkim, həm də psixoloq olmalıdır.

Xüsusi şərait dedikdə, sağlamlıq imkanları məhdud şəxslərin pedaqoji-psixoloji, tibbi, sosial və digər xidmətləri alması üçün yaradılmış şərait başa düşülür. Xüsusi təhsilin məqsədi sağlamlıq imkanları məhdud şəxslərə zəruri bilik, bacarıq və vərdişlər aşılamaqla onların cəmiyyətə uyğunlaşmasını, o cümlədən özünəxidmət vərdişlərinin yaradılmasını, əmək fəaliyyətinə və ailə həyatına hazırlanmasını təmin etməkdən ibarətdir.

Xüsusi təhsil sahəsində dövlətin vəzifələrinə daxildir:

— sağlamlıq imkanları məhdud şəxslərin bacarıq və imkanları nəzərə alınmaqla dövlət hesabına təhsil almalarına təminat verilməsi;

— xüsusi təhsil sahəsində məqsədli dövlət proqramlarının hazırlanması və həyata keçirilməsi;

— xüsusi təhsilin dövlət standartlarının müəyyən olunması;

— xüsusi təhsilin dövlət vəsaiti hesabına maliyyələşdirilməsi;

— sağlamlıq imkanları məhdud şəxslərin bacarıq və imkanlarına uyğun peşələr üzrə hazırlıq almalarına şərait yaradılması;

— sağlamlıq imkanları məhdud şəxslərin peşə-ixtisas təhsili almalarına təminat verilməsi;

— xüsusi təhsil sahəsində kadrların hazırlanması, yenidən hazırlanması və ixtisaslarının artırılmasına təminat verilməsi;

— xüsusi təhsili həyata keçirən müəssisələrin maddi-texniki bazasının möhkəmləndirilməsi [5, s. 7].

Sağlamlıq imkanları məhdud aşağıdakı şəxslər təhsil aldıqları məktəbəqədər, xüsusi təhsil müəssisələrində, internat tipli xüsusi təhsil müəssisələrində, o cümlədən ümumi tipli internat məktəblərin xüsusi təhsil bölmələrində tam dövlət təminatındadırlar; karlar və zəif eşidənlər; korlar və zəif görənlər; ağır nitq qüsurları olanlar; dayaq hərəkət aparatının funksiyaları pozulanlar; əqli cəhətdən geri qalanlar (debillər, imbisillər); emosional-iradi sahədə və davranışlarında nəzərə çarpan ağır pozuntuları olanlar; psixi inkişafın ləngliyi ilə əlaqədar təlimdə çətinlik çəkənlər; mürəkkəb çatışmazlıqları (fiziki çatışmazlığın, əqli və (və ya) psixi ləngimələrin məcmusu) olanlar.

Xüsusi təhsil xüsusi təhsil müəssisələrində, xüsusi təhsil bölmələrində, xüsusi şərait yaradılan ümumi təyinatlı təhsil müəssisələrində Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş formalarda həyata keçirilir.

Sağlamlıq vəziyyətinə görə təhsil müəssisələrində təhsil almaq imkanı olmayan şəxslərin təhsili müvafiq təhsil müəssisəsi vasitəsilə evdə təşkil edilir.

Evdə təhsil almaq hüququ verən xəstəliklərin siyahısı və evdə təhsilin təşkili qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Sağlamlıq imkanları məhdud şəxslər tibb müəssisələrində uzunmüddətli (21 gündən artıq) stasionar müalicədə olarsa, müvafiq icra hakimiyyəti orqanı psixoloji-tibbi-pedaqoji komissiyanın qərarı əsasında onların müvafiq ümumi tədris proqramlarına uyğun təhsil almalarını təşkil edir. Stasionar şəraitdə təhsilin təşkili qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq sağlamlıq imkanları məhdud şəxslərin psixoloji-tibbi-pedaqoji və ya tibbi-sosial ekspert komissiyasının qərarına əsasən xüsusi şərait yaradılan ümumi təyinatlı təhsil müəssisələrində təhsil almaq hüququ vardır. Təhsil

müəssisələrinin rəhbərliyi sağlamlıq imkanları məhdud şəxslərə tədris prosesində zəruri köməkçi xidmət təşkil etməlidir [2, s. 76].

Təhsil müəssisəsində psixoloji-pedaqoji və tibbi göstərişlərə (əks göstərişlərə) uyğun təhsil almaq üçün lazımi xüsusi şərait varsa, həmin müəssisədə sağlamlıq imkanları məhdud şəxslər üçün inteqrasiya təlimli təhsil təşkil edilir. İnteqrasiya təlimli təhsil müəssisəsinin rəhbərliyi şəxslərdə fiziki çatışmazlıq, yaxud konkret bir peşə (ixtisas) üzrə məhdudiyyət barədə əks göstəriş yoxdursa, onların qəbuluna etiraz edə bilməz. İnteqrasiya təlimli təhsil müəssisələrində təhsilin təşkili qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir

Nəticə olaraq deyə bilərəm ki, dövlət başçımızın təhsillə bağlı qarşıya qoyduğu strateji məqsəd Azərbaycanda bu sahəni qloballaşan dünyanın tələbləri səviyyəsində qurmaq, milli təhsil modelinin gerçəkləşdirilməsinə maddi-texniki və intellektual zəmin formalaşdırmaq və təhsilalanların sağlamlığına göstərilən qayğını daha da yüksətməkdir. Şübhəsiz, təhsil infrastrukturunu yeniləşdirmədən, müasir tipli yeni məktəblər inşa etmədən, təlim-tədris prosesinə lazımi şərait yaratmadan, dünya ölkələrinin mütərəqqi təhsil ənənələrini nəzərə almadan bu məqsədlərə nail olmaq qeyri-mümkündür. Bunu nəzərə alan fond ilk növbədə yeni məktəblərin inşası istiqamətində sistemli və ardıcıl iş aparır. Azərbaycanın birinci xanımının birbaşa təşəbbüsü ilə həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi bu baxımdan cəmiyyətdə çox böyük əks-səda doğurmuşdur.

Son illər Azərbaycanda iqtisadi yüksəliş bütün sahələrdə özünü büruzə verir. Təhsilin inkişafına göstərilən diqqət və bu sahəyə ayrılan vəsait günbəgün artır. Dövlətin əsas məqsədlərindən biri xüsusi qayğıya ehtiyacı olan təhsil alanlara kömək göstərmək, onların sağlamlığını mühafizə sosial problemlərini həll etməkdir.

**Məqalənin aktuallığı.** Ölkəmizdə uşaq və yeniyetmələrə, gənclərə göstərilən diqqət və qayğı, onlara yaradılan hərtərəfli şərait dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Dövlət başçısı da daim bu sahəyə xüsusi diqqət ayırır, uşaq və yeniyetmələrin sağlam, bilikli və hərtərəfli böyümələri yönündə bir sıra tədbirlər həyata keçirilir. Məqalədə də məhz bu sahədə görülən işlərdən söhbət açıldığından onu aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə respublikamızın xüsusi təhsil sistemində həyata keçirilən interaktiv proseslərə toxunulur, xüsusi təhsil sahəsində dövlətin vəzifələri sadalanmaqla bu istiqamətdə görülən tədbirlərdən danışılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 aprel 2002-ci il tarixli 74, 10 may 2002-ci il tarixli 77 nömrəli qərarları.

2. Əhmədov H.H. Azərbaycan təhsilinin strategiyası. Bakı: Elm, 2010.

3. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010, 516 s.

4. Mərdanov M.C. Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı: Çaşıoğlu, 2009, s. 182-194.

5. “Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında Azərbaycan Respublikasının Qanunu”. (Bakı, 5 iyul 2001-ci il tarixində imzalanmış, 19 iyul 2001-ci il tarixli 540 nömrəli fərmanla qüvvəyə minmişdir.)

6. Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının qanunu Bakı: Təhsil, 1998, 16 s.

**Г.Т. Байрамлы**

## Забота нашего государства о здоровье учащихся

## Резюме

Благодаря вниманию и заботе Президента о секторе образования, в последние годы эта статья была охарактеризована как период высокого развития, углубления реформ во всех сферах, а также развития сектора образования и заботы о здоровье студентов как одного из главных приоритетов государственной политики. Прошло более 5 лет с момента утверждения Государственной стратегии развития образования, дорожной карты для сектора образования, осуществляемой по инициативе Президента страны. За прошедший период был достигнут значительный прогресс в реализации стратегии. В последние годы расходы на образование из государственного бюджета значительно увеличились в результате программ, направленных на улучшение здоровья педагогов.

**G.T. Bayramlı**

## The care of our state for the health of students

## Summary

As a result of the President's attention and care to the education sector, the article has been described in recent years as a period of high development, deepening reforms in all areas, and the development of the education sector and care for students' health as one of the main priorities of public policy. It has been more than 5 years since the approval of the State Education Development Strategy, a roadmap for the education sector, implemented at the initiative of the President of the country. Over the past period, significant progress has been made in implementing the strategy. In recent years, education expenditure from the state budget has significantly increased as a result of programs aimed at improving the health of educators.

**Redaksiyaya daxil olub:** 25.02.2020